*UOT 37.91*

***Fidan Knyaz qızı Babayeva***
*Gəncə Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*E-mail: babayevafidan2013@gmail.com*
*https://orcid.org/0009-0003-5572-0785*
*https://doi.org/10.69682/arti.2025.92(5).32-35*

# TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİ PROSESİNİN ŞƏXSİYYƏTYÖNLÜ TƏHSİLLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ KONSEPSİYALARI

***Fidan Knyaz Babayeva***
*doctorial student in the program of doctor of philosophy*
*of Ganja State University*

# CONCEPTS OF THE CONNECTION OF HUMANIZATION OF THE EDUCATIONAL PROCESS WITH PERSONALLY-ORIENTED EDUCATION

***Фидан Князь гызы Бабаева***
*диссертант по программе доктора философии*
*Гянджинского Государственного Университета*

# КОНЦЕПЦИИ СВЯЗИ ГУМАНИЗАЦИИ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА С ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННЫМ ОБРАЗОВАНИЕМ

**Xülasə.** Müəyyənləşdirilir ki, humanistyönlü təlim-tərbiyə müəllim fəaliyyəti və təhsilin məzmunu ilə bilavasitə bağlıdır. Ona görə də, bu bağlılıq nəzərə alınaraq hər bir fənn üzrə humanist potensialın üzə çıxarılması vacibdir. Təhsilin humanistyönlü olması müəllimin özünün humanistyönlü olması ilə də bağlıdır, və bu özünü müəllimin şəxsi keyfiyyətlərində göstərir. Bu, müasir dünyanın ümumbəşəri proseslərinin inkişaf tendensiyalarında bir istiqamət, qlobal düşünmək və bilikləri ətraf aləmlə əlaqələndirmək bacarığıdır.

Müəyyənləşdirilmiş pedaqoji şərtlərə riayət edilməsi təlim prosesində şagirdə humanist yanaşmanı həyata keçirməyə tələbələrin keyfiyyətli hazırlanmasını təmin edir.
***Açar sözlər:*** *şəxsiyyətyönlü təhsil, humanistyönlü pedaqogikanın prinsipləri, təhsilin humanistləşdirilməsi, şəxsiyyət nəzəriyyəsi, təhsil konsepsiyası.*

**Abstract.** It has been determined that humane-oriented educational upbringing is directly related to the teacher's activities and the content of education. Therefore, it is important to identify the humanistic potential in each subject, taking this connection into account. The humane-oriented focus of education is also associated with the humane-oriented focus of the teacher himself, and this is manifested in the personal qualities of the teacher. This is a direction in the development trends of universal human processes in the modern world, as well as the ability to think globally and connect knowledge with the surrounding world.

Compliance with these pedagogical conditions ensures high-quality preparation of students for the implementation of a humanistic approach to the student in the learning process.
***Key words:*** *personality-oriented education, principles of humane-oriented pedagogy, humanization of education, personality theory, concept of education.*

**Аннотация.** Установлено, что гуманистически ориентированное обучение и воспитание напрямую связано с деятельностью учителя и содержанием образования. Поэтому, с учётом этой взаимосвязи, важно выявить гуманистический потенциал каждого учебного предмета. Гуманистическая направленность образования также зависит от гуманистической направленности самого учителя, которая проявляется в его личностных качествах. Это является одним из направлений в тенденциях развития общечеловеческих процессов современного мира – способностью мыслить глобально и связывать знания с окружающим миром. Соблюдение определённых педагогических условий обеспечивает качественную подготовку студентов к реализации гуманистического подхода к ученику в учебном процессе.
***Ключевые слова:*** *личностно-ориентированное образование, принципы гуманистической педагогики, гуманизация образования, теория личности, образовательная концепция*

Tədqiqat mövzumuzla bağlılığına görə, təhsilin humanistləşdirilməsi prosesini şəxsiyyətyönlü təhsillə əlaqələndirən alimlərin konsepsiyalarına müraciət etməyi zəruri hesab edirik. N.M. Kazımovun [2], Ə.Ə. Əlizadənin, H.Ə. Əlizadənin [1], V.V. Serikovun [7], E.V. Bondarevskayanın [3;4], V.P. Sazonovun [6] tədqiqat işlərinin təhlili məktəblinin hərtərəfli mənəvi, intellektual və fiziki inkişafına yönəlmiş şəxsiyyətyönlü təlimi bir proses kimi xarakterizə etməyə imkan verir. Bu prosesin mərkəzində uşaq şəxsiyyəti durur, bu prosesin məqsədi uşaq şəxsiyyətinin formalaşdırılmasıdır.

İ. Kantın təbirincə, humanistyönlü pedaqogikanın əsas prinsiplərindən birinin mənası ondan ibarətdir ki, şagirdlər müəllimin məqsədinə çatmaq vasitəsi deyildir, şəxsi inkişafının məqsədidir.

"Şəxsiyyətin inkişafına yönəlmiş təhsil şəxsiyyətin inkişafı üçün nə dərəcədə şərait yaradırsa, o dərəcədə də öz məqsədinə nail olur" fikri V.V. Serikovun şəxsiyyətyönlü təhsil konsepsiyasının əsas ideyasıdır. Alim psixoloji araşdırmalardan belə qənaətə gəlir ki, şəxsiyyət hər hansı inkişafa nə dərəcədə müqavimət göstərərsə, o dərəcədə inkişaf edər. Ona görə də istənilən təlim prosesinin şəxsiyyətin inkişafına yönəlməsi fikrini iddia etmək olmaz. Uşağın fərdiyyətçiliyi təhsil prosesinin proqramlaşdırılmasını pozur, ona seçici və özünüinkişaf xüsusiyyətləri verir.

V.V. Serikovun konsepsiyası S.L. Rubinşteynin şəxsiyyət nəzəriyyəsinə ("şəxsiyyət"-insanın müəyyən mövqe tutmaq qabiliyyətidir) əsaslanır. S.L. Rubinşteynin bu ideyasını inkişaf etdirərək V.V. Serikov vurğulayır ki, şəxsiyyətyönlü təhsil yalnız müəyyən xüsusiyyətlərə malik şəxsiyyət formalaşdırmaqla məşğul olmur, o, təlim prosesinin aşağıdakı subyektiv funksiyalarını tam üzə çıxarıb, inkişafı üçün şərait yaradır:

- motivasiya (işi qəbul edib, əsaslandırmaq);
- vasitəçilik (xarici təsirlərə və davranışın daxili impulslarına münasibətdə);
- qarşıdurma (gizli ziddiyyətləri görmək);
- tənqidlər (kənardan təklif olunan dəyər və normalarla bağlı);
- refleksiya ("Mən" obrazını yaratmaq və saxlamaq);
- semantik yaradıcılıq (dəyərlər sisteminin müəyyən olunması);
- oriyentasiya (şəxsi dünyagörüşünün formalaşması);
- özünüinkişaf (hər hansı şəxsi əhəmiyyətli işin yaradıcı xarakterinin təmin olunması);
- daxili aləmin sabitliyinin təmin olunması ("Mən" obrazının başqaları tərəfindən tanınmasına səy göstərmək);
- mənəvi həyat səviyyəsinin təmin edilməsi (həyat üçün vacib praktiki tələbatlar barəsində məlumatların qarşısının alınması) [7, s.16-18].

V.V. Serikov şəxsiyyətyönlü təhsilin məqsədini mövcud funksiyaların hərtərəfli inkişafında görür. Şəxsiyyətyönlü təhsil kontekstində subyektivlik, semantik yaradıcılıq, tənqidçilik özünədəyər vermək kimi təqdim olunur.

Təhsilin humanistləşdirilməsi uşaqda insanlığın tərbiyə olunması ilə bağlıdır. İnsan öz daxilində insani məzmun daşıdığını dərk etməlidir. Bu o deməkdir ki, təhsilin humanistləşdirilməsi prosesində həll olunacaq aparıcı vəzifələrdən biri özünüifadə etmək üçün şəxsin üsul və vasitələr axtarıb tapması və əsaslandırmasıdır. Qeyd edək ki, əvvəlki dövrlərdə ideoloji-siyasi tələblərlə işıqlandırılan sosial rolun icrasına hazırlıq davranış və fəaliyyətin ciddi tənzimləyici çərçivəsində həyata keçirilirdi.

Şagirdlərdə, tələbələrdə "mövcud olmaq" tələbatının formalaşması ideyası (E. Fromm) F.M. Dostoyevskinin "Tam realizmdə insanda insanlıq tapın" sözləri ilə açıqlana bilər. Bu o deməkdir ki, şəxsiyyət, onun azad inkişafı, özünüifadəyə cəhd göstərməsi siyasi, ideoloji tələb və normalardan üstün kimi qəbul edilir. A.V. Zosimovskinin vurğuladığı kimi, məktəbi müxtəlif siyasi qrupların hər hansı ideoloji təsir və münasibətlərindən qorumaq lazımdır. Məktəbin əsas məqsədi azad, müstəqil və əxlaqlı şəxsiyyətin inkişafı üçün ən yaxşı şərait yaratmaqdan ibarətdir [5, s.54].

Ənənəvi təhsildə müəllimin əsas fiqur kimi bütün təlim – tərbiyə prosesini idarə etdiyi bir şəraitdə bu məqsədə çatmaq mümkün deyildi. Şagird bu zaman pedaqoji təsirin obyekti olurdu. Ənənəvi təlim nəinki tərbiyənin məqsədinə çata bilmirdi, o, həm də nə cəmiyyəti, nə şagirdləri, nə də valideynləri qane etmirdi. Ənənəvi təlim inzibati qaydada, komanda idarəetməsi əsasında həyata keçirilirdi.

Ənənəvi və şəxsiyyətyönlü təhsil arasında fərq özünü prioritetlərdə, məqsəd və meyarlarda göstərir.

V.V. Serikovun konsepsiyasının [7, s.54-67] təhlili bizə ənənəvi və şəxsiyyətyönlü təhsilin əsas xarakterik xüsusiyyətlərini sadalamağa imkan verdi:

| Ənənəvi və şəxsiyyətyönlü təhsilin xarakteristikası | | |
|---|---|---|
| | Şəxsiyyətyönlü təhsil | Ənənəvi təhsil |
| Prioritet | Şəxsiyyət | Subyekt, müəyyən sosial funksiyanı icra edən, müəyyən davranış modelini icra edəndir. |
| Məqsəd | Şüurun şəxsi strukturunun formalaşması | "Praktiki əməliyyat" təcrübəsinin aşılanması, kənardan təqdim olunmuş məzmunun mənimsənilməsi |
| Meyar | Humanist dəyərlər | Dövlət, onun iqtisadi və ideoloji tələbləri |

Pedaqoji fəaliyyətin mərkəzinə şagird şəxsiyyətinin qoyulması və bu fəaliyyətin şəxsiyyətə yönəlməsi, şagirdə ali dəyər verilməsi şübhəsiz ki, təhsilin humanist paradiqması ilə üst-üstə düşür. Şəxsiyyətyönlü təhsildə şəxsi komponent sistem yaradan komponent kimi çıxış edir. Lakin ənənəvi təhsildə bu idrak komponentindən ibarət olur. Humanist-istiqamətverici pedaqoji fəaliyyət şagirdlərin semantik sferasının inkişafı ilə intellektual təfəkkürün əlaqəli-harmonik inkişafını nəzərdə tutur.

Şagirdin öz "Mən" obrazını dərk etməsi, mənəvi-dəyəryönlü inkişafı, onda dünyagörüşünün, özünüdərketmə və öz müqəddəratının təyinetmə qabiliyyətlərinin formalaşması şəxsi keyfiyyətlərin formalaşması üçün çox vacibdir.

Təhsilin humanistləşdirilməsinin həyata keçirilməsi kontekstində özünüifadə mexanizminin üzə çıxarılması və şagird şəxsiyyətinin formalaşması üçün pedaqoqun zəruri şərait yaratması böyük əhəmiyyət kəsb edir.

V.V. Serikovdan fərqli olaraq tədqiqatçı E.V. Bondarevskaya şəxsiyyətyönlü təhsil ideyasını tərbiyəyə yeni baxışla (yeni yanaşma ilə) əlaqələndirir. Onun fikrincə, bu, uşağın subyektə çevrilməsində, sosiallaşmasında, öz müqəddəratını təyin etməsində, mədəni identifikasiyanın formalaşmasında pedaqoji yardım prosesi kimi çıxış edir [3, s.72].

Elmi axtarışlar və pedaqoji praktikanın dərk olunması əsasında E.V. Bondarevskaya şəxsiyyətyönümlü təhsilin əsas müddəalarını müəyyən etmişdir:

1. Şəxsiyyətyönlü təhsilin əsas dəyərləri – uşağın özü, onun şəxsiyyəti, mədəniyyəti və yaradıcılığıdır. Buradan aydın olur ki, təhsilin mahiyyətini uşaq şəxsiyyəti, onun fərdiyyətçiliyinin formalaşmasına, özünü dərketməsinə, mədəniyyətin subyektinə çevrilməsinə və onun inkişafına köməklik edən yaradıcı mühiti əmələ gətirən fəaliyyət təşkil edir.

2. Təhsilin məqsədi mədəni, təbii və sosial mahiyyətə malik mədəni insan tərbiyə etmək, şəxsiyyətin formalaşması üçün insanda özünüdərketmə, özünütənzimləmə, özünüinkişaf və s. kimi digər vacib mexanizmləri üzə çıxarmaq, dəstəkləmək və inkişaf etdirməkdən ibarətdir.

E.V. Bondarevskayanın fikrincə bu məqsədə, aşağıda qeyd olunmuş təhsilin funksiyalarını vəhdətdə və qarşılıqlı əlaqədə reallaşdırmaq sayəsində çatmaq olar.

a) humanitar funksiya - insan ekologiyasının: fiziki və mənəvi sağlamlıq, səxsi azadlıq, mənəviyyat, yaşamaq amalının bərpası və qorunmasının qayğısına qalmaq. Buna nail olmaq üçün təhsil insana anlama, ünsiyyət və əməkdaşlıq yaratmaq kimi mexanizmlər aşılamalıdır;

b) mədəniyyət formalaşdırıcı funksiya - təhsil vasitələrinin köməyi ilə mədəni irs qorunub saxlanılmalı, gələcək nəslə ötürülməli və inkişaf etdirilməlidir. Bu zaman mədəni identifikasiya mexanizmlərinin olması zəruridir;

c) sosiallaşma funksiyası - sosial təcrübənin şəxs tərəfindən icrasının təmin olunması, insanların cəmiyyətə maneəsiz adaptasiyasını təmin olunması. Bu funksiyanın icrası üçün uyğunlaşma, öz fərdiyyətçiliyini qoruyub saxlamaq, yaşamaq, refleksiya kimi mexanizmlər tələb olunur [4, s.11-17].

Fikrimizcə, şəxsiyyətyönlü təhsilin həyata keçirilməsi zamanı söhbət yalnız bu funksiyaların əhəmiyyətindən getməməlidir. Sistem ya-

radan funksiyanın tərkib hissələrini də müəyyən etmək vacibdir. Biz hesab edirik ki, sistem yaradan funksiya mədəniyyət aşılayan funksiyadır.

Onun mahiyyəti şagirdləri mədəniyyət və onun dəyərləri ilə tanış etməkdən, mədəni, informasiyalı, savadlı insan yetişdirməkdən ibarətdir. Bu funksiyanın sayəsində uşaq təlim-tərbiyə prosesinin mərkəzinə gətirilir. Nəticədə biliyin məzmununa mədəni dəyərlərin daxil edilməsi qaçılmaz olur. Bu vəziyyət humanitar funksiyanın icrasını tələb edir. Bununla yanaşı təhsil, məktəb şagirdlərin başqa insanlarla, ətraf aləmlə sosial əlaqələr qurması probleminin həllini gündəmə gətirir. Mədəni dəyərlərə əsaslanan məzmunla tanışlıq müəyyən olunmuş sərhədlərdən kənara çıxaraq, yeni sosial mühitə daxil olmaq üçün şagirdlərdə "azad hərəkət etmək" imkanı yaradır.

**Problemin aktuallığı.** Bu gün subyektin mədəniyyətə, təhsilə qayıdışından danışarkən, şübhəsiz ki, təhsilin humanistləşdirilməsinin, sonra isə sosial münasibətlərin humanistləşdirilməsinin real mexanizmlərindən biri kimi uşağın şəxsiyyətinə humanist yanaşma nəzərdə tutulur. Ona görə də, uşağın şəxsiyyətinə humanist yanaşma ilə bağlı mövcud problemlərin həlli müasir məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

**Problemin elmi yeniliyi.** Tələbələrin şagirdə humanist yanaşmanın həyata keçirilməsinə hazırlanmasının imkan və yolları, onun pedaqoji şərtləri müəyyən edilmişdir. Müəllimin şagirdə humanist yanaşmasının yeni məzmununu verilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri tələbələrin mədəni-mənəvi dəyərlər aləmində humanistyönlülük metodunun həyata keçirilməsinə istiqamətləndirmək baxımından ümumi pedaqoji hazırlıq prosesinin təkmilləşdirilməsinə töhfə verə bilər.

**Ədəbiyyat:**


1. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya: Dərslik / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə – Bakı: ADPU-nun nəşriyyatı, – 2010. – 685 s.
2. Kazımov N.M. Milli pedaqogika yollarında. // N.M. Kazımov. – Bakı: OKA Ofset, -2004. – 248 s.
3. Бондаревская, Е.В. Гуманистическая парадигма личностно-ориентированного образования // Педагогика, 2017, № 4. – с. 70-74.
4. Бондаревская, Е.В. Теория и практика личностно-ориентированного образования // Педагогика, -2016, № 5. – с. 11-17
5. Зосимовский А.В. Критерии нравственной воспитанности // П едагогика, -2018, № 11-12. – с.49-55.
6. Сазонов В.П. Воспитание на основе потребностей человека // Педагогика, -2013, № 2. – с.28-32.
7. Сериков, В.В. Образование и личность. - М.: Логос, -2019. – 271 с.


**Redaksiyaya daxil olub:** 16.09.2025.